## Əməkdaşlıq fəaliyyətləri

- AQTA ilə İspaniyanın müvafiq qurumları arasında qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində birbaşa əlaqələr qurulmuş, əməkdaşlığın dərinləşdirilməsi üzrə mütəmadi görüşlər və texniki mübadilələr həyata keçirilir.

- **2025-ci il 1 avqust** tarixində Agentlik Kollegiyasının 60 nömrəli Qərarına əsasən İspaniyanın qida obyektləri üzrə təsdiq sistemlərinin ekvivalentliyinin tanınması qərara alınmışdır.
- **2025-ci il 3 mart** tarixində Agentliyin nümayəndələri ilə İspaniya Kənd Təsərrüfatı Assosiasiyası, İspaniyanın Ankaradakı Səfirliyi və ispan şirkətlərinin nümayəndələri arasında görüş keçirilmiş, ikitərəfli əməkdaşlıq imkanları və idxal-ixrac potensialı ilə bağlı fikir mübadiləsi aparılmış, müəssisələrin qeydiyyatı barədə ətraflı məlumat verilmişdir.
- **2024-cü il 15 iyul** tarixində diri balıq və mayalanmış kürülərə dair baytarlıq sertifikatı razılaşdırılmışdır.
- **2023-cü il 13 mart** tarixində Agentliyin nümayəndəsi İspaniyanın Saraqosa şəhərində təşkil olunan 14-cü Beynəlxalq Heksaxlorosikloheksan (HCH) və Pestisid Forumunda iştirak etmişdir.
- **2021-ci il 16 aprel** tarixində 1-3 günlük cücə və inkubasiya yumurtalarına dair baytarlıq sertifikatı razılaşdırılmışdır.
- İki ölkə arasında qida məhsullarının dövriyyəsi, ikitərəfli normativ bazanın uyğunlaşdırılması, müəssisələrin qeydiyyatı və tanınması, epizootik nəzarət təcrübələrinin paylaşılması, sərhəd nəzarəti və ixrac prosedurlarının əlaqələndirilməsi üzrə mütəmadi texniki görüşlər keçirilib.